Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;**

# Məskunlaşma sürətlənir

## Qarabağ və Şərqi Zəngəzurun yaxın illərdə Azərbaycan iqtisadiyyatının 10 faizdən çoxunu formalaşdıracağı gözlənilir

**KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov 30-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" və 18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" sərgisində çıxışı zamanı deyib ki, işğaldan azad edilmiş ərazilərin münbit torpaq ehtiyatına malik olması aqrar sektor və qida sənayesi üçün yeni imkanlar yaradır. Onun sözlərinə görə, kənd təsərrüfatı və qida sənayesi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin daha çox fəaliyyət göstərdiyi sektorlardandır.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) bu sektorlarda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərini müxtəlif xidmətlər və mexanizmlər çərçivəsində dəstəkləyir. Sədr bildirib ki, bunun davamı olaraq KOBİA mikro, kiçik və orta sahibkarların bugünkü sərgilərdə iştirakına dəstək göstərir: "Agentliyin dəstəyi ilə aqrar və qida sektorlarında fəaliyyət göstərən 9 KOB subyektionlar üçün ayrılmış xüsusi stenddə öz məhsul və xidmətlərini təqdim edirlər. Stendimizdə mikro, kiçik və orta sahibkarlar tərəfindən istehsal olunmuş müxtəlif turşular, əzmələr, donmuş meyvə pürelləri, siroplar, suxarilər, peçenyelər, təbii sirkələr, kərə yağları, şərablar, ballar, toxumlar və gübrələr, suvarma sistemləri və avadanlıqları və s. nümayiş olunur. Ümumiyyətlə, KOB-ların satış imkanlarının genişləndirilməsi, məhsul və xidmətlərinin tanıdılmasına dəstəyin göstərilməsi vacibdir və bu, KOBİA-nın fəaliyyət istiqamətlərindən biridir". O.Məmmədov vurğulayıb ki, 2018-ci ildən etibarən 1500-dən çox startap, mikro, kiçik və ortasahibkarlıq subyektlərinin müxtəlif ixtisaslaşmış yerli və xarici sərgilərdə və yarmarkalarda iştirakına KOBİA tərəfindən dəstək göstərilib: "Eyni zamanda, KOBİA "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərinə dəstək göstərən qurumlar sırasındadır. Kənd təsərrüfatı və qida sənayesi ölkə iqtisadiyyatının, xüsusilə də qeyri-neft sektorunun aparıcı sahələrindəndir və ötən müddət ərzində ölkəmiz bu sahədə bir çox uğurlar qazanıb. Dünya təcrübəsi göstərir ki, kənd təsərrüfatı sahəsində fəaliyyət yerli icmaların, kəndlərin və regionların, bütövlükdə ölkənin dayanıqlı sosial-iqtisadi inkişafında aparıcı rola malikdir. Kənd təsərrüfatı həm də qlobal miqyasda ərzaq təhlükəsizliyinin əsas təminatçısı kimi çıxış edir. Heç şübhəsiz ki, 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad edilmiş torpaqlarımızın böyük iqtisadi potensialı və investisiya cəlbediciliyi, kənd təsərrüfatı üçün münbit torpaq ehtiyatına malik olması aqrar sektor və qida sənayesi üçün yeni imkanlar yaradır və bu sahədə fəaliyyət nəticədə ölkə iqtisadiyyatının inkişafına öz müsbət töhfəsini verməkdədir".

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərin bərpası və iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, habelə həmin ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların səmərəli idarə edilməsi prioritet istiqamətlərdəndir. Gələcəkdə torpaq islahatının predmeti ola biləcək və dövlət mülkiyyətində saxlanılacaq həmin torpaqların müəyyən edilməsi, yaşayış məntəqələri salındıqca, onların zəruri infrastrukturla (suvarma, meliorasiya, elektrik və s.) təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, Nazirlər Kabinetinin 26 dekabr 2024-cü il tarixli 544 nömrəli Qərarına əsasən, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi ilə bağlı Qaydalar təsdiq edilib. Qaydalar "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq hazırlanıb. Sənəd işğaldan azad edilmiş ərazilərində əhalinin məskunlaşdığı və yaşadığı inzibati ərazi dairələrinin sərhədləri daxilində yaşayış məntəqələrinə yaxın kənd təsərrüfatı təyinatlı torpaqların birillik və çoxillik əkinlərin aparılması üçün kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə müvəqqəti icarəyə verilməsi ilə bağlı məsələləri tənzimləyir.

Qaydalara əsasən, torpaqlar işğaldan azad edilmiş kəndlərdə və qəsəbələrdə məskunlaşan və həmin yaşayış məntəqələrində yaşayan sakinlərə icarəyə verilir. Yerquruluşu işləri aparılmaqla əkinə hazır vəziyyətə gətirilmiş, yolnəqliyyat, su, elektrik infrastrukturu qurulmuş və meliorativ tədbirlər görülmüş torpaqlar icarə obyekti ola bilər. Təbii sərhədlərlə əhatə olunmuş 5 hektardan az olan torpaq sahələri istisna olmaqla, icarəyə veriləcək torpaq sahəsi azı 5 hektar olmalıdır. Torpaqların icarəyə verilməsi Kənd Təsərrüfatı Nazirliyi (KTN) tərəfindən "Elektron kənd təsərrüfatı" informasiya sistemi vasitəsilə elektron qaydada həyata keçirilir. Bu məqsədlə Nazirlik torpaqların icarəyə verilməsi barədə internet səhifəsində elan verir. Elanda torpağın məqsədli təyinatı (əkin və ya çoxillik əkmə), dəmyə və ya suvarılan olması, suvarma kanalından, elektrik xətlərindən və yoldan əraziyə qədər olan məsafə və s. göstərilir. Eyni zamanda icarəyə veriləcək torpaqlarda tətbiq edilməsi zəruri olan müasir suvarma sistemlərinin siyahısı əksini tapır. Qaydalara əsasən, bir torpaq sahəsi üçün iki və ya daha çox sakinin müraciəti əsasında kooperativ yaradılmaqla da icarəyə götürülə bilər. Torpaqlar birillik əkinlər və yonca əkinləri üzrə ilkin olaraq 2 il, çoxillik əkmələr üzrə ilkin olaraq 5 il müddətinə icarəyə verilir. Torpaqların icarə müqaviləsinə uyğun istifadə olunduğu müəyyən edildikdə birillik əkinlər, habelə yonca əkinləri üzrə icarə müddəti 3 il, çoxillik əkmələr üzrə isə 15 il uzadıla bilər. İcarə müqaviləsinin müddəti bitdikdən sonra yeni müqavilə bağlanılarkən həmin icarəçiyə və onun vərəsələrinə üstünlük verilir. Müqavilə bağlayan sakinlər onlara verilmiş torpaq sahəsini təyinatı üzrə və müasir suvarma sistemləri tətbiq edilməklə istifadə etməlidirlər. Həmçinin, torpaqların icarəyə götürülməsi üçün müraciət edən sakinlərin torpaqlarda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində bilik və bacarığının təkmilləşdirilməsi məqsədilə Nazirlik yanında Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən onlara təlimlər keçirilə bilər.



**Millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib ki, işğaldan azad olunmuş ərazilərimizə sahibkarlığın, biznesin cəlb edilməsi, xüsusən mikro, kiçik və orta sahibkarların prosesdə daha fəal iştirakı vacibdir. Deputat vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzurda bizneslə məşğul olmaq istəyən, bölgəyə sərmayə qoymaq niyyətində olan sahibkarlar üçün 10 il müddətində güzəştlər tətbiq olunmaqdadır:**

"Sahibkarlarımız hazırda həmin güzəştlərdən istifadə etmək imkanına malikdir. Güzəştlər arasında bütün vergilər üzrə, sosial haqların ödənişlərinin edilməsi ilə bağlı, kommunal xidmətlərin 20 faizinin sahibkarın özünə qaytarılması və s. məsələlər yer almaqdadır. Bu da ondan xəbər verir ki, Qarabağ və Şərqi Zəngəzurda sahibkarların fəaliyyəti, məşğulluğun yaradılması üçün kifayət qədər çox istiqamətli güzəştlər tətbiq olunur. Yeni mərhələdə, xüsusən məskunlaşmanın sürətləndiyi və intensivləşdiyi mərhələdə daha çox özəl sektorun bölgəyə cəlb edilməsi, yeni iş yerlərinin yaradılması, iqtisadiyyatın formalaşması əsas hədəflərdən biridir. Gözlənti ondan ibarətdir ki, Qarabağ və Şərqi Zəngəzurda iqtisadiyyatın inkişafı və Azərbaycan iqtisadiyyatına inteqrasiyası bütövlükdə Azərbaycanda iqtisadi artım tempinə pozitiv təsir göstərəcək.

Eyni zamanda Qarabağ və Şərqi Zəngəzurun yaxın illərdə Azərbaycan iqtisadiyyatının 10 faizdən çoxunu formalaşdıracağı gözlənilir. Bu, əslində, təxminən 15 milyard manata yaxın yerli dəyərin yaranması deməkdir. Ona görə də dövlət dəstəyi, eləcə də tətbiq edilən güzəştlər, investisiyanın cəlb edilməsi üçün bütün imkanları yaradır. Cənab Prezidentin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, bərpa edilir, məskunlaşma sürətlənir. Bu da mikro, kiçik və orta sahibkarlar üçün də yeni imkanlar deməkdir".

**İsmayıl Qocayev**